

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 216 (23.628)

*11 dekabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan dekabrın 10-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan həmin gün Şəhidlər xiyabanını ziyarət ediblər.

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış edib. Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan çıxış edib. Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başlayıb.

Dekabrın 10-da Prezident İlham Əliyevin və Prezident Rəcəb Təyyib Ərdoğanın təkbətək görüşündən sonra Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər noyabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 12 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 516 müraciət daxil olub. Onlardan 294-ü əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılıb, müvafiq qərarlar qəbul edilib.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 222 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 49-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## "ASAN xidmət" mərkəzi üçün inşa olunan binada hərtərəfli iş şəraiti yaradılacaq

Muxtar respublikamızda son illərdə insanların rahatlığına xidmət edən bir sıra iri layihələr icra olunur ki, bunların sırasında "ASAN xidmət" mərkəzi xüsusi əhəmiyyəti ilə seçilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 16 yanvar tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə bu məqsədlə 8,8 milyon manat vəsait ayrılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə "ASAN xidmət" mərkəzi yaradılıb, 2 hektara yaxın torpaq sahəsi ayrılıb, aprel ayından etibarən mərkəz üçün yeni binanın tikintisinə başlanılıb.



Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq binada tikinti işlərini "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının inşaatçıları həyata keçirir. İş icraçısı Orxan Orucovun bildirdiyinə görə, hazırda tikilinin təməlində izolyasiya tədbirləri aparılır, zirzəmi hissədə kommunikasiya xətlərinin quraşdırılması üçün yerlər hazırlanır. Birinci və ikinci mərtəbədə hörgü işləri görülür, üçüncü mərtəbəyə beton qatı verilir.

Layihəyə əsasən binanın zirzəmisində yeməkxana, anbar, texniki otaq, qazanxana, bufet, mətbəx, arxiv, mərtəbələrdə psixoloji xidmət, həkim, mühafizə, işçilər üçün digər otaqlar, iclas zalı, arxiv və ofis, laboratoriya yerləşəcək. Xarici görünüşü, daxili dizaynı və tərtibatı ilə seçiləcək mərkəzdə vətəndaşlara operativlik, məsuliyyət və rahatlıq prinsipləri əsasında müasir tələblərə cavab verən zəruri xidmətlər göstəriləcək.

**✍ Nail ƏSGƏROV**

## Muxtar respublikada dekabr ayı üzrə pensiyaların maliyyələşdirilməsi təmin olunmuşdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü inkişaf strategiyası nəticəsində dayanıqlı makroiqtisadi sabitlik təmin olunmuş, əhalinin rifah halının yüksəldilməsi və güclü sosial müdafiə sisteminin qurulması sahəsində əsaslı uğurlar qazanılmışdır. Bir çox ölkələrin iqtisadi böhran yaşadığı hazırkı dönəmdə ölkəmizdə sosial proqramların uğurla reallaşdırılması diqqət mərkəzində saxlanılır.

Muxtar respublikada sosial müdafiə sahəsində aparılan siyasət sığorta-pensiya sisteminin inkişafına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən sığorta-pensiya sisteminin tətbiqi və əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri uğurla davam etdirilir. Belə ki, fond dekabr ayında pensiyaçılara bütün növ əmək pensiyalarının ödənilməsini qrafikdən əvvəl başa çatdırmışdır. Hazırda isə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin də vaxtlı-vaxtında maliyyələşdirilməsi üçün müvafiq işlər görülür.

Muxtar respublikada pensiyaçılara pensiyaların ödənilməsi sistemində mütərəqqi üsullardan istifadə olunur. Belə ki, bütün növ əmək pensiyaçıları plastik kartlar vasitəsilə öz pensiyalarını istənilən vaxt rahat şəkildə əldə etmək imkanına malikdirlər. Eyni zamanda kənd yerlərində yaşayan pensiyaçıların pensiyalarını yaşadığı ünvanda əldə etməsi üçün də müvafiq tədbirlər görülmüş, onların istəkləri nəzərə alınmaqla kənd yerlərində pensiyaların poçt bölmələri vasitəsilə ödənilməsi təşkil olunmuşdur. Hazırda muxtar respublikada 604 pensiyaçı pensiyalarını kəndlərdəki poçt bölmələri vasitəsilə əldə edir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Son tamamlama işləri aparılır



Sədərəkdə aparılan quruculuq işlərindən biri də Radio-Televiziya Ötürücü Stansiyasıdır. İkimərtəbəli müasir binada iş, qazanxana, elektrik və texniki otaqlar olacaq.

Binanın həyətyanı sahəsi qaydaya salınıb, yaşıllıq sahələrinə münbit torpaq qatı verilib. İş otaqlarında mebel avadanlıqları quraşdırılıb. Stansiyada çalışanlara müasir iş şəraiti yaradılıb. Televiziya verilişlərinin keyfiyyətli yayımlanması üçün müasir avadanlıqlardan istifadə ediləcək.

***Xəbərlər şöbəsi***

## Kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə qarşıya qoyulmuş vəzifələrin müzakirəsi keçirilib.

Tədbiri giriş sözü ilə xidmətin rəisi Müslüm Cabbarzadə açaraq qeyd edib ki, torpaqların şoranlaşma, şorakətləşmə, müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, bu cür ərazilərin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və yenidən əkin dövriyyəsinə qatılması ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən aid qurumlarla razılaşdırılmaqla müvafiq komissiya yaradılıb. Komissiya tərəfindən iki ay müddətində muxtar respublika ərazisində monitorinqlər aparılıb, müxtəlif amillərin təsiri ilə deqradasiyaya məruz qalmış torpaq sahələri müəyyənləşdirilib.

Deqradasiyaya məruz qalmış kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin münbitliyinin artırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər planında xidmətin qarşısına deqradasiyaya məruz qalmış torpaq sahələrinin uçotu və xəritələşdirilməsi, torpaqların qida maddələri ilə təminolunma kartoqramlarının yenilənməsi, əkin atlaslarına uyğun ixtisaslaşmanın təşviqi, torpaqlardan səmərəli istifadəyə dair maarifləndirmə tədbirlərinin keçirilməsi ilə bağlı konkret vəzifələr qoyulduğu qeyd edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Tələbələr təcrübə keçirlər



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin Sosial iş ixtisası üzrə IV kurs tələbələrinin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçəcəkləri təcrübə ilə bağlı görüşü olub.

Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, Naxçıvan Dövlət Universitetinin Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə görüşlərin, seminarların keçirilməsi, nazirliyin və onun tabeliyində olan sosial xidmət müəssisələrinin fəaliyyəti ilə tanışlığının təşkili hər il davam etdirilir. Ötən dövr ərzində nazirlik tərəfindən müvafiq ali təhsil müəssisəsi ilə əlaqələr genişləndirilib, Sosial iş ixtisası üzrə təhsil alan tələbələrin istehsalat təcrübələrini nazirlikdə və tabeli qurumlarda keçməsi təmin edilib.

Sonra çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fakültəyə uğurla hamilik etməsindən, tələbələrin ixtisas təcrübəsi qazanmaları üçün hərtərəfli şərait yaradılmasından, nəzəri-təcrübi əhəmiyyətli birgə tədbirlərin həyata keçirilməsindən bəhs edib.

Görüşdə müvafiq ixtisasın tələbəsi Səbinə Babayeva və Sosial iş ixtisası üzrə məzun olmuş və hazırda nazirliyin strukturunda işləyən dövlət qulluqçusu Nadim Nəcəfov çıxış edərək minnətdarlıqlarını bildiriblər.

Sonra tələbələr nazirliyin strukturuna daxil olan təşkilatlarda olub, günlük iş prosesini yerində izləyiblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Zəfər paradın mübarəkdir, qalib ordu!



*Azadlıq meydanı hansı hadisələrə şahidlik etməyib ki? Bu meydan milli azadlıq hərəkatını görüb. Bu meydanda 20 Yanvar şəhidləri son mənzilə yola salınıb. Bu meydan dəfələrlə hərbi paradlar da görüb. Amma Azadlıq meydanı Zəfər paradını heç vaxt görməmişdi. Azərbaycan dekabrın 10-da daha bir tarixi anı yaşadı.*

Düşmənin kapitulyasiya aktına qol çəkməsindən bir ay sonra qalib Azərbaycan Ordusu paytaxt Bakının mərkəzində güc nümayişinə çıxmışdı. "Dəmir yumruq" əməliyyatında – Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər, eləcə də Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Zəfər paradında Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın iştirak etməsi Türkiyə-Azərbaycan qardaşlığının, dostluğunun bariz ifadəsi idi.

Otuz il bir igidin ömrüdür. Nə az, nə çox, Azərbaycan xalqı əzəli torpaqlarına qovuşmaq üçün otuz il gözlədi. Azərbaycan dövləti düşmənə bu müddət ərzində münaqişənin sülh yolu ilə həll olunması üçün, bəlkə də, otuz yox, üç yüz dəfə şans verdi. Çünki biz tarixən sülh və humanizm dəyərlərinə hörmətlə yanaşmışıq, qan tökülməsini istəməmişik. Düşmən isə nəinki sülhə yaxın durmadı, hər fürsətdə təxribat törətməkdən, atəşkəsi pozmaqdan da çəkinmədi. O qədər azğınlaşdı və azğınlaşdı ki, yeni ərazi iddiaları ilə çıxış etməyə başladı. "Qarabağ Ermənistandır" kimi cəfəng bəyanatla erməni ordusunun sonunu gətirən, xalqını isə məhvə sürükləyən baş nazir Paşinyan qırx dörd günün hökmü qarşısında diz çökdü.

26 iyun 2018-ci il. Azadlıq meydanında Silahlı Qüvvələr Gününə həsr olunmuş növbəti parad keçirilir. Ali Baş Komandan çıxışında deyir: ***"Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".***

10 dekabr 2020-ci il.QALİB SƏRKƏRDƏ xalqına verdiyi bu sözə əməl edir. Zəfər bayrağı Azadlıq meydanına gətirilir və qələbə paradı başlayır. Hərbi mütəxəssislər də belə hesab edirlər ki, yenicə müharibədən çıxmış bir ordunun qısa bir vaxtda dirçəlməsi və formalaşması elə də asan məsələ deyil. Amma biz döyüş meydanından qalib kimi ayrılmışdıq. Buna görə də "Dəmir yumruq" hərbi əməliyyatından bir ay sonra Azərbaycan əsgəri yenidən meydana çıxmışdı. Döyüş meydanından alnıaçıq, üzüağ qayıdan, düşməni işğal altındakı torpaqlarımızdan qovmaqla tarixi missiyasını başa çatdıran qalib ordu iradəli xalqı, müzəffər Ali Baş Komandanı ilə yenidən bütövləşmək üçün Azadlıq meydanında idi.

Budur, hərbi marşın sədaları altında Silahlı Qüvvələrin müxtəlif qoşun növlərindən təşkil olunmuş şəxsi heyəti nizami addımlarla meydandan keçir. Bu addımlar məğrurluğun, yenilməzliyin, qalibiyyətin, zəfərin əks-sədasıdır. Qırx dörd gün ərzində dünya hərb tarixinə düşəcək döyüş taktikasından istifadə edərək nəyə qadir olduğunu göstərən oğullar siyasi



xəritəmizdəki qara ləkəni təmizlədilər. Qarabağın qara bağını açdılar.

Qürur dolu kadrlar bir-birini əvəz edir. Bu dəfə parad heyətinin tərkibində döyüşlərdə düşmənin qorxulu röyasına çevrilən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı dəstələri keçid edir. Şəhidlər veriblər, qazi olublar, amma haqq yolundan dönməyiblər bu oğullar. İndi onların Azadlıq meydanında məğrurluq rəmzinə çevrilən nizami addımları bir ay bundan öncə düşmənin bağrını yarıb. Düşmənə qarşı ürəklərində bəslədikləri intiqam eşqi dünyanın ən müasir texnikasından da, atıcı silahından da güclü olub.

Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları da ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak etdilər. Düşünürəm ki, bu, çox vacib və rəmzi məna daşıyan bir addımdır. Çünki liseyin məzunu olan neçə-neçə oğullar Vətən müharibəsində şahidlik zirvəsinə ucalıb, öz qəhrəmanlıqları ilə dastan yazıblar. Azadlıq meydanından keçən bu gənc kursantlar bir neçə il sonra güclü Azərbaycan Ordusunun sıralarını formalaşdıracaqlar.



Ardınca Azərbaycan Ordusu üçün qalibiyyəti, düşmən üçün biabırçı məğlubiyyəti, rəzil imici ifadə edən döyüş vasitələri meydanın önündən keçir. Düşmənin döyüş meydanında qoyub qaçdığı və saz vəziyyətdə olan texnika artıq Azərbaycan Ordusunun ixtiyarındadır. Bir vaxtlar bəzi erməni hərbi-siyasi rəhbərlərinin "tanklarımız Bakıya gələcək" kimi populist çıxışları reallığa dönür. Amma məğlub kimi, məhv edilmiş kimi, bundan sonra bizim ordumuza xidmət göstərəcək döyüş vasitələri kimi... Düşmən, sən işğalçı xislətini ordunun imicindən, nüfuzundan, döyüş vasitələrindən üstün tutmaqla bir daha nümayiş etdirdin ki, Qarabağ Azərbaycandır!

Hərbi qüdrətimizi təcəssüm etdirən Zəfər paradında növbə ordumuzun silah arsenalındakı texnikaların nümayişindədir. "Dəmir yumruq" hərbi əməliyyatında düşmənə yerini göstərən ən müasir texnikalar, zenit raket qurğuları, artilleriya vasitələri, zirehli transportyorlar, piyadaların döyüş maşınları, "İti qovan", habelə, "Bayraktar-TB2", "Harop" PUA-ları meydanın önündən keçir. "Zəfər paradı" həm də Azərbaycanın iqtisadi gücünün nümayişidir. Deməli, biz həm də BÖYÜK QƏLƏBƏni Azərbaycanın müstəqillik illərində düşünülmüş və möhkəm dayaqlar üzərində formalaşan güclü iqtisadiyyatına borcluyuq.

Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamlayan helikopterlərin ardınca döyüş təyyarələri aviaşou göstərirlər. Səmada dövlət bayrağının təsvirinin yaradılması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirirlər. Beləliklə, tarixi parad başa çatır. 10 noyabr daha bir qürurlu və unudulmayacaq gün kimi, şanlı tariximizdə öz yerini alır. Bu, qalib ordunun güc nümayişi idi. Bu, haqqın və tarixi ədalətin arxasınca gedən, onu bərpa edən ordudur. Bu, müzəffər Ali Baş Komandanın hər bir əmrinə daim müntəzir olan şanlı ordudur. Zəfər paradın mübarəkdir, QALİB ORDU!..

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

# STEAM tədris metodu üzrə müəllim hazırlığı diqqətdə saxlanılır





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı yüksəkixtisaslı kadr hazırlığı ilə yanaşı, innovasiyaların yaradılması istiqamətində yeni vəzifələrin müəyyənləşdirilməsində də əsas rol oynamaqdadır. Sərəncam təhsilin inkişafında yeni mərhələnin əsasını qoymuş, təhsil müəssisələrində yaradıcı düşüncənin və inkişafa xidmət edən layihələrin hazırlanmasına və tətbiqinə geniş imkanlar açmışdır.

Muxtar respublikada müasir təhsilin tələblərinə cavab verən çoxsaylı layihələr – innovativ təhsil üsullarının tətbiqi istiqamətində "İnnovativ dərnəklər", "Sabahın tədqiqatçıları", "Sabahın müəllimi", "İnteraktiv dərs", "Nümunəvi dərs", "Həftəsonu", "Distant təhsil" layihələri tətbiq edilir. 2020-2021-ci tədris ilindən etibarən isə verilmiş tapşırığa əsasən muxtar respublikanın ümumtəhsil məktəblərində yeni təlim metodunun tətbiqinə başlanılıb. Bu, dünya təhsil sistemində aktuallıq qazanan STEAM təhsil metodudur. Muxtar respublikanın 13 məktəbində pilot olaraq tətbiq ediləcək STEAM layihəsinin həyata keçirilməsində məqsəd müasir çağırışlara cavab verən yeni təlim metodunun muxtar respublikamızda da tətbiqi imkanlarının öyrənilməsi və tədris edilməsidir. Artıq qısa müddət ərzində Şərur rayon Qarabürc kənd tam orta məktəbində STEAM kabinəsi, Culfa Rayon Texniki Yaradıcılıq Mərkəzinin nəzdində Robotexnika və STEAM dərnəyi yaradılaraq istifadəyə verilmişdir.

Şagirdlərə beş sahənin – elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulan STEAM təhsili praktik və tətbiqi dərslərdən ibarətdir. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə öyrədir. Bu yanaşma şagirdlərə mühəndislik səriştələri öyrədərək, onlara real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEAM fənləri şagirdləri hansı peşə seçmələrindən asılı olmayaraq, həyata hazırlayır. Bu təlim metodunda şagirdlərə robotexnika, 3D modelləşdirmə və çap, proqramlaşdırma, nano və neyro texnologiyalar, mühəndislik və dizaynerlik bacarıqları öyrədilir. Məlumatlar vizual və audioüsulla yanaşı, həm də toxunma və təhsiletmə formasında mənimsədilir ki, bu da şagirdlərin ixtisas və peşə seçiminə müsbət təsir göstərir.

STEAM təlim metodu təhsilə yeni ideyalar gətirməklə yanaşı, şagirdlərə mühəndislik səriştələri öyrədərək, onların real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. İnnovativ inkişafın açarı olan STEAM təlim metodu pilot olaraq tətbiqi nəzərdə tutulan ümumtəhsil məktəbləri üzrə VI və VII sinif şagirdləri üçün tədris olunacaq. Layihənin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən tədris vəsaitləri və illik tədris proqramı nəşr olunub.

Bu gün muxtar respublikada innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması da vacib hədəflərdən biridir. Buna görə də muxtar respublika ümumtəhsil məktəblərində STEAM-i tədris edəcək müəllimlər təlimə cəlb olunub. Təlimlərdə muxtar respublikanın 28 məktəbindən 30 müəllim iştirak edir. Hazırda həftədə 2 dəfə olmaqla, ixtisaslı kadrlar tərəfindən təlimlərin keçirilməsi davam edir. Təlimlər zamanı müəllimlərə STEAM metodologiyaları, Robotexnika, 3D CAD Modelləşdirmə və Çap, Proqramlaşdırma, mikrobit və arduino texnologiyaları, mühəndislik modulları ilə yanaşı nəzərdə tutulan proqram əsasında STEAM tədrisi üçün istifadə olunan *www.tinkercad.com* səhifəsindən onlayn istifadə bacarıqları da mənimsədilir. Müəllimlər *www.tinkercad.com* səhifəsində müəllim və şagird qeydiyyatının aparılması, müxtəlif obyektlərin informasiya modellərinin yaradılması və 3D çap modulundan istifadə qaydaları haqqında geniş məlumatlar əldə edirlər. Keçirilən təlimlər nəticəsində müəllimlər STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları və digər istiqamətlərdə məlumatlar əldə edəcəklər. Qeyd edək ki, növbəti təlimlərdə proqram əsasında müəllimlərə mikrobit vasitəsilə kodlama, müxtəlif mühəndis-dizayn həllərinin prototipləşdirilməsi və digər istiqamətlərdə praktik biliklər veriləcək və təlimi uğurla başa vuran müəllimlər Təhsil Nazirliyi tərəfindən STEAM dərslərini aparmağa icazə hüququ verən sertifikatla təmin ediləcəkdir. Gələcəkdə də beynəlxalq təlimçilərin muxtar respublikaya dəvət olunması, həmçinin muxtar respublikada fərqlənən müəllimlərin beynəlxalq təlimlərə cəlb edilməsi istiqamətində işlər görüləcəkdir.

*İnanırıq ki, istedadlı uşaqların aşkarlanması və düzgün istiqamətdə yetişdirilməsində mühüm rol oynayan STEAM-in muxtar respublikamızda tətbiqi şagirdlərin XXI əsrin çağırışlarına uyğun formalaşmasına xüsusi töhfələr verəcəkdir.*

**Ülviyyə HACIYEVA**

## Tələbələr *"Qarabağ – 2020"* Beynəlxalq İncəsənət Müsabiqəsində iştirak edib

*Naxçıvan Musiqi Kollecinin tələbələri Azərbaycan Gənclər İttifaqı və Azərbaycan Rəqs Assosiasiyasının təşkilatçılığı ilə keçirilmiş 6-cı "Qarabağ – 2020" Beynəlxalq İncəsənət Müsabiqəsində iştirak edib. Qeyd edək ki, yarışma artıq 6 ildir ki, keçirilir. Bu il Ağdam rayonunda keçirilməsi planlaşdırılan tədbir həm pandemiya, həm də müharibə ilə əlaqədar olaraq qiyabi formatda baş tutub.*

"Qarabağ kuboku" yarışmasına bütün bölgələrdən, paytaxt Bakıdan, eləcə də qonşu ölkələrdən – Gürcüstan, Türkiyə, İran və başqa yerlərdən iştirakçılar qatılıb. Bu il yarışmada gücünü sınayanlar xüsusi həvəs və şövqlə çıxış ediblər. Səbəb isə bu gün Milli Ordumuzun ön cəbhədə bizə yaşatdığı Qələbə sevinci ilə bağlıdır. Yeni nəsil gənclərimiz "Qarabağ kuboku" uğrunda yarışmada eyni əzmkarlığı nümayiş etdiriblər.

Yarışmanın keçirilməsində məqsədlərdən biri də uşaqdan-böyüyə hər kəsdə Vətən sevgisini daha da möhkəmləndirmək, onları daha da ruhlandırmaqdır.

Müsabiqədə "Duet" nominasiyası üzrə Naxçıvan Musiqi Kollecinin Xalq çalğı alətləri şöbəsi qarmon ixtisasının 4-cü kurs tələbəsi Adil Əliyevin Tofiq Bakıxanovun "Konsert" əsəri və Orkestr alətləri şöbəsinin klarnet ixtisası üzrə 3-cü kurs tələbəsi Samral Babayevin, Nazim Əliverdibəyovun "Elegiya" əsərinin uğurlu ifaları yaddaqalan olub.

Azərbaycanın tanınmış incəsənət xadimlərindən ibarət olan münsiflər heyətinin yekdil rəyinə əsasən Adil Əliyev II, Samral Babayev isə III dərəcəli diplomlara layiq görülüblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

***Vətən müharibəsində qazandığımız Böyük Qələbə Qarabağın iqtisadi-mədəni inkişafının gələcək perspektivlərini müəyyənləşdirməyi aktuallaşdırdı. Ordumuzun möhtəşəm zəfərindən sonra Cənubi Qafqaz iqtisadiyyatının 60 faizinə malik olan Azərbaycan iqtisadiyyatının da Qarabağda nəyə nail olacağını bütün dünya maraqla gözləyir.***

# Qarabağ iqtisadiyyatı və turizmin inkişafı

30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olmuş Qarabağın azad edilməsi uğrunda aparılan 44 günlük müharibə təkcə bu regionda deyil, bütün dünyada çox geniş rezonans yaratdı. İndi hər yerdə düşmən hədəflərini gözündən vuran ağıllı silah-sursatların təbliğindən tutmuş, Şuşanı əlbəyaxa döyüşlə işğalçılardan təmizləyən Azərbaycan əsgərinin igidliyindən danışılır. Bu dövrdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı siyasət, qazanılmış diplomatik uğurlar isə, sözün əsl mənasında, dünya liderlərinə bir dərs oldu. Beləcə, ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən möhkəm zəmin üzərində yaradılmış dövlət-xalq-ordu birliyi, nəhayət ki,



öz ali məqsədinə – düşmənin torpaqlarımızdan qovulması hədəfinə çatdı. Artıq Azərbaycan qalib ölkədir.

Müharibə sonrası baş verən hadisələri indi bütün dünya maraqla izləyir. Zəhərli başı əzilsə də, hələ də quyruğu ilə sağa-sola çırpınan ilana bənzəyən məğlub Ermənistanda daxili vəziyyət getdikcə mürəkkəbləşərkən azadlığa qovuşmuş Qarabağda həyata keçiriləcək hər yeni layihənin təkcə işğal dövründəki yaraları sağaltması deyil, həm də işğaldan sonrakı dövrdə daha genişməzmunlu inkişafa səbəb olacağı gözlənilir. Bu layihələr bir tərəfdən Naxçıvan Muxtar Respublikasının birbaşa olaraq Azərbaycanın əsas hissəsinə çıxış yolunun açılması və bununla əlaqədar olaraq Frankfurt-İstanbul-Şanxay ticarət dəhlizində Qarabağın da çox mühüm mövqe qazanması, digər bir tərəfdən isə ölkəmizdə qeyri-neft sektoru və ixrac marşrutları üçün yeni perspektivlərin yaranması baxımından da əsas arqumentlər kimi gələcəkdə çox müzakirə olunacaq. Bunlarla yanaşı, işğal sonrası Qarabağda turizm mövzusunun aktual olduğunu da müxtəlif səviyyələrdəki çıxışlardan izləməkdəyik.

Azərbaycanın Qələbəsi xalqımızın qurub-yaratmaq əzmini də ortaya qoyub. Artıq işğaldan azad olunmuş rayonlarda dövlətin vacib idarəetmə strukturlarının fəaliyyətinin bərpa edilməsi, Suqovuşandakı turizm və hidroehtiyatların istifadəyə cəlb olunması, bu ərazilərdə başladılan yol-infrastruktur çalışmaları, Xudafərin ərazisindəki su anbarlarının hidroenerji və meliorasiya məqsədilə istifadəsi məsələləri kimi sırf iqtisadi mahiyyətli tədbirlər gündəmə gəlməkdədir. Düşmənin tamamən Qarabağdan çəkilməsindən sonra bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu torpağın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət mərkəzi, məşhur turizm destinasiyası olacağını deməyə əsas verir.

Qarabağ və erməni işğalından azad olunmuş digər yeddi rayon müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından tarixən ölkəmizin digər regionları ilə inteqrativ əlaqələrə malik olub. 30 il öncəsində də bu bölgənin coğrafi mövqeyi, təbii sərvətləri və insan resursları Qarabağ iqtisadiyyatının inkişafında mühüm rol oynayıb. O vaxtlar burada yaradılmış nəqliyyat və infrastruktur şəraiti ilə yanaşı, mövcud olan təbii ehtiyatlar energetika, dağ-mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi, meşə təsərrüfatı, balıqçılıq və turizm kimi sahələrdə mühüm layihələr həyata keçirməyə imkan verirdi. 1988-ci ilədək, yəni SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ iqtisadi rayonu məhz bu sərvətlər hesabına mühüm inkişaf göstəriciləri əldə etmiş və bu iqtisadi nəticələr birbaşa olaraq bölgədə məskunlaşmış əhalinin yaşayış səviyyəsində və məşğulluğunda özünü göstərmişdi. Həmin dövrün statistikasına nəzər salsaq, görərik ki, burada bir sıra məhsulların istehsalında respublika əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, təkcə kənd təsərrüfatı üzrə baxsaq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, pambıqçılıq və tütünçülüklə yanaşı, ətlik və südlük heyvandarlıq məhsullarının istehsalında mühüm göstəricilərin əldə olunduğunu görməkdəyik. Tarixən Qarabağ əhalisinin mənimsədiyi məşğuliyyət növləri və toplanan təcrübə burada əsas rol oynayıb. Eləcə də emal sənayesi və sənətkarlıqda, xüsusən dünyaca məşhur olan xalçaçılıqda Qarabağ adı hələ o dövrdə dünya markası halına gəlmişdi. Bütün bu və digər sahələrlə yanaşı, Qarabağ özünün təkrarolunmaz turizm ehtiyatları və kurort-sanatoriya müəssisələri, qorunan təbii-rekreasiya məkanları ilə səyahətçilərin də diqqət mərkəzində olub.

Qədim mədəniyyət nümunələrinə, əsrarəngiz təbii-iqlim şəraitinə, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağın şöhrəti hələ yüz illər öncəsindən bütün dünyaya məlum olub. Qədimdə və xüsusən orta əsrlərdə Azərbaycana səfər edən səyyahlar bu torpağın gözəlliklərindən bəhs edib, buradakı unikal təbii, tarixi-mədəni zənginliklərdən söhbət açıblar. Gözəl həyat üçün hər cür şəraiti olan Qarabağ, bəlkə, elə bu səbəbdən də yadellilərin iştahasında olub, hücumlara məruz qalıb. Tarixboyu amansız döyüşlər meydanı olmuş bu torpaq nə qədər çətin mübarizələrdən keçsə də, öz azərbaycanlı kimliyini qoruyub, düşmənlərinə boyun əyməyib. XIX əsrin ikinci yarısından başlayaraq neft üçün Azərbaycana gəlmiş xarici kapital sahibləri Cənubi Qafqazın ən görməli məkanlarından biri olan Qarabağa – Şuşaya, Kəlbəcərə səfərlər ediblər. Sonrakı vaxtlarda sovet hakimiyyəti dövründə Qarabağ həm xarici, həm də yerli turistlər tərəfindən çox seçilib. XX əsrin 30-cu illərindən Şuşadakı kurort müəssisələri, pansionat və sanatoriyalar, Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi Cıdır düzü buraya səyahətə gələnlərin sevimli yeri olub. Bunlarla yanaşı, Xankəndi, Ağdam, Kəlbəcər ərazilərindəki rekreasiya məkanları bölgənin turizm-rekreasiya potensialını beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb, respublikamıza gələn yüz minlərlə turistin mühüm bir hissəsi məhz Qarabağın payına düşüb. Xüsusən 1970-ci illərdən başlayaraq burada yaradılmış turizm-rekreasiya müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib. Ancaq Ermənistanın 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində təkcə Qarabağda deyil, eyni zamanda buradan qaçqın salınmış insanların ölkəmizin kurort-sanatoriya müəssisələrində yerləşdirilməsi ilə bütün Azərbaycanda daxili və gəlmə turizmə ciddi zərərlər vurulmuş, turizm ehtiyatları, xüsusən Azərbaycan xalqının zəngin tarixi-mədəni ehtiyatları talanmış, bölgədə ekoloji böhran yaranmış, bütün infrastruktur məhv edilmişdir.

Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb edilməsi qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın yurd həsrəti çəkən Qarabağ sakinlərinin, onların yaxın qohum-əqrəbalarının, müxtəlif humanitar missiyalar həyata keçirən beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri digər işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir. Turizm növlərinə gəldikdə, 8 noyabr – Şuşanın işğaldan azad olunması tarixi turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Bu tarixi gündə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Şuşa istiqamətində ilk səfərə çıxanlar, xüsusən xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə məhv edilmiş insan məskənlərini, korlanmış ekosistemi, dağıdılmış məzarlıqları və eləcə də Daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq. Bu marşrutlar Suqovuşandan Xankəndiyə, işğaldan ilk azad olunmuş Cəbrayıldan Kəlbəcərədək geniş bir ərazidə çox zəngin informativ resursa sahib olacaq. Xarici jurnalistlər, eləcə də bütün əcnəbi turistlər işğaldan miras qalmış şəhər və kəndləri gördükcə bu, onlarda ermənilərin gerçək həyat tərzi haqqında ən real təsəvvür yaradacaq. Onda bütün



dünya biləcək ki, faşizm ruhlu bu insanlar istədiyi vaxt sıx məskunlaşdıqları Los-Angeles, Marsel, Beyrut, Rostovda da hər an belə izlər qoyub getməyə hazırdırlar.

İşğal sonrası Qarabağda turizmin inkişafı, hər şeydən əvvəl, bu bölgənin iqtisadiyyatının dirçəldilməsi



və ölkəmizin digər yerlərində məskunlaşmış yerli insanların öz torpaqlarına qayıdışı üçün mühüm faktorlardan biri olacaq. Turizmin çox ciddi sosial-humanitar məzmunlu funksiyaları bunu etməyə imkan verir. Belə ki, turistlərə təklif olunacaq xidmətlər digər sahələrə nisbətən öz xərcini daha tez çıxardığından bu, bölgəyə işçi qüvvəsi axınına səbəb olacaqdır. Qarabağda həm ekoturizm, həm mədəni tanışlıq, həm də müalicə turizmi üçün geniş imkanlar olduğundan burada turistlərə təklif edilən zərf xidmətlərinin də çeşidi və məzmunu olduqca müxtəlif olacaq. Laçın və Kəlbəcərin unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır. Turist marağı baxımından dünyada çox populyar olan səhləb bitkisi xarıbülbülü Şuşada canlı olaraq seyr etmək Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Qarabağ bölgəsi Azərbaycanın bir çox yerlərindən fərqli olaraq qışı və yayı mülayim keçən, yaşıllıqlarla zəngin olan bir ərazidir. Belə bir unikal təbii-iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizminin də inkişafı deməkdir. Erməni işğalından sonra burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini şəhərli turistlər üçün sevimli istirahət məkanı edəcək.

Qarabağda turizmin gələcək inkişafının iqtisadiyyata çoxaldıcı effektindən əlavə, çox mühüm siyasi əhəmiyyəti də vardır. Bu gün artıq Şuşa şəhərinin və Xudafərin körpüsünün UNESCO-nun mədəni irs siyahısına salınması üçün işlərə başlanılıb. Bütün bunlar 30 il ərzində ermənilərin təkcə bu bölgə üçün deyil, bütün Cənubi Qafqaz bölgəsi üçün törətdikləri riskli bölgə imicinin də qırılması deməkdir. Qarabağın işğalına görə mövcud olmuş riskli bölgə anlayışı isə təkcə ölkəmizdə deyil, bütün bölgədə həm getmə, həm də gəlmə turizmə çox ciddi zərərlər vururdu. Bu gün hələ də cəzasını çəkdikləri sərsəm xəyallarından əl çəkməyib, quru bir ağac parçasına da tamah salan məğlub erməni cəmiyyəti bilməlidir ki, işğal etdiyi Qarabağda taladığı Azərbaycan qızılı, meşə sərvətləri, inşaat materialları kimi çox dəyərli turizm ehtiyatlarımız da olub. Buna görə də, Azərbaycanın Qarabağda qısa müddətdə turizmdən əldə edəcəyi müsbət nəticələr ölkəmizin turizm ehtiyatlarına, turizm sənayesinə və ümumilikdə, iqtisadiyyatımıza vurulmuş zərərlərə görə Ermənistanın ödəməli olduğu maddi təzminatın daha tutarlı bir arqumenti olacaq. 2019-cu ilin nəticələrinə əsasən Azərbaycana gəlmiş 2,5 milyona yaxın əcnəbi turistin ölkə iqtisadiyyatına qazandırdığı, təxminən, 3 milyard ABŞ dolları həcmində gəlir, bu baxımdan Qarabağın işğalı nəticəsində itirdiyimiz gəlirlərin səviyyəsindən xəbər verir.

*Turizm sülh və sabitliyin bəhrəsi, eyni zamanda rahat yaşayışın mühüm faktorlarındandır. Buna görə də Qarabağın azadlığa qovuşması XXI əsrin ilk mühüm hadisəsi kimi tarixə keçdisə, bu torpaqda turizmin inkişafı da bu bölgədə hamının arzu etdiyi humanitar inkişaf üçün mühüm töhfə olacaq.*

**Əli CABBAROV**

# "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ekskursiya təşkil olunmuşdur

Dünən ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin "Welcome to Nakhchivan" layihəsi çərçivəsində "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ekskursiyası təşkil olunub. Əvvəlcə Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış edərək bildirib ki, gənclərin mütəmadi olaraq muxtar respublikanın turizm əhəmiyyətli məkanlarına, muzeylərə, tarixi yerlərə ekskursiyaları təşkil edilir. Ekskursiyanın təşkil olunmasında məqsəd Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrinə qəbul olunmuş əcnəbi tələbələri muxtar respublikanın turizm məkanları, tarixi abidələri və muzeyləri ilə tanış etməkdən ibarətdir.

Kompleksin bələdçisi məlumat verib ki, Naxçıvanda yerləşən Əshabi-Kəhf mağarası təkcə ziyarətgah deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biridir. Təsadüfi deyil ki, İslamın müqəddəs kitabı "Qurani-Kərim"də də Əshabi-Kəhfin adı çəkilir. Əshabi-Kəhf dağın və pirin adıdır. Naxçıvan əhalisinin müqəddəs sandığı yer – Əshabi-Kəhf mağarası dağlar arasında yerləşir. "Əshab" yeniyetmə cavan oğlanlar, "kəhf" isə mağara, sığınacaq yeri deməkdir. Hər gün yüzlərlə insan bu ocağa gələrək ziyarət edir, Allah yolunda qurbanlar kəsir. İlin hansı dövründə olursa-olsun, burada əcnəbi turistlərə rast gəlmək mümkündür. Son illərdə Əshabi-Kəhfdə iki dəfə abadlıq, bərpa işləri aparılıb, zəvvarlar üçün rahatlıq yaradılıb, 13 kilometr məsafədə rahat yol salınıb, məscid tikilib, kitabə qoyulub. 2007-ci ildə aparılan quruculuq işləri daha da genişləndirilib, ziyarətgahda köşklər memarlıq baxımından fərqlənən tikililərlə əvəz olunub. Ziyarətgahın ərazisində qonaq evi, bələdçi otağı və hədiyyələr mağazası da fəaliyyət göstərir. Azərbaycanın bölgələrindən və müxtəlif müsəlman ölkələrindən bu dini ocağa gələn zəvvarların sayı ildən-ilə artır.

Ekskursiya Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Suqovuşana qovuşmaq amalı və ya bir kəşfiyyatçının döyüş yolu...



***“Buradan mən bölük komandirim, baş leytenant Şəhriyar Mehdiyevə minnətdarlığımı bildirirəm. O biz əsgərlərə bölük komandiri yox, əsl qardaş, yoldaş olub. Onun sayəsində mən və əsgər yoldaşlarımın çoxu bu gün evimizdə, ailəmizin yanındayıq”. Dekabrın 3-ü “Xəzər” televiziyasının efirində yayımlanan “Səni axtarıram” verilişində Suqovuşanın azad olunması uğrunda aparılan döyüşlərdə şücaətlə vuruşub yaralanan Famil Üzeyirovun dilindən eşidirəm bu sözləri. Elə həmin an haqqında bəhs olunan bu komandirin şücaətləri barədə öyrənmək istəyimdən sosial şəbəkələrə baş vururam. Qısa axtarışlardan sonra qəhrəman igidimizin Babək rayonunun Nehrəm kəndindən olduğu aydınlaşır və onu tanıyanlardan tezliklə Naxçıvana gələcəyi barədə aldığım xəbər bu yazını hazırlamaq fikrimi daha da qətiləşdirir...***

Eloğlumuzla qısa tanışlıq, söhbətimiz məndə onun cəsur xarakteri, keçdiyi şərəfli döyüş yolu barəsində dərin təəssüratlar yaradır. Tərcümeyi-halına nəzər yetirərkən düşünürəm: Doğrudan da kim deyə bilərdi ki, 1994-cü il martın 2-də – qışın baharı müjdələyən bir günündə sadə ailədə dünyaya göz açan balaca Şəhriyar 26 il sonra yazılacaq şanlı tariximizdə iz buraxacaq nəinki Mehdiyevlər ailəsinin, bütün Azərbaycanın fəxrinə çevriləcək. Ancaq zaman və bir də ən vacib amil olan Vətənə dərin məhəbbət, doğma yurdun keşiyində dayanmaq, onu qorumaq və lazım gələndə işğal altındakı torpaqlarımızı azad etmək amalı öz sözünü dedi.

Bəli, hərb sənətinə uşaqlıqdan yaranan sonsuz maraq və istəyi çıxarır Şəhriyarı bu şərəfli, Böyük Qələbəyə aparacaq yola. Belə ki, o, 2008-ci ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayır. Gələcəyin qəhrəmanı liseyi müvəffəqiyyətlə bitirib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2015-ci ildə məktəbi uğurla başa vurur, 6 ay müddətində kəşfiyyat kursu keçir. 2016-cı ildə Yevlaxda yerləşən “N” hərbi hissədə taqım komandiri, leytenant kimi xidmətə başlayır. Hərb tariximizə qızıl hərflərlə yazılan 2016-cı ilin Aprel döyüşləri hələ xidmətə yenicə başlayan, keşməkeşli hərb yollarında kövrək addımlarını atan Şəhriyarın şücaət və döyüş bacarığını ortaya çıxarır. Həmin vaxt ordumuzun azad etdiyi yüksəkliklərdə zəfər marşı çalan Vətən övladları arasında bu eloğlumuz da xüsusi seçilir. 2018-ci il iyunun 26-dan bölük komandiri, baş leytenant kimi yeni vəzifəsinin icrasına başlayan Şəhriyar qısa zamanda əsgərlərinin döyüş hazırlığının yüksəldilməsində bir sıra əhəmiyyətli işlər görür, döyüş qabiliyyəti yüksək, əsl nizam-intizamlı bölük formalaşdırır.

Hərb sənətinə dərindən yiyələnənlər, peşəkar hərbçi və bu sahə üzrə ekspertlər haqlı olaraq bildirirlər ki, döyüşün uğurlu aparılmasında, müharibənin qazanılmasında kəşfiyyat işi olduqca həlledici məqam, vacib amildir. Məhz Şəhriyar Mehdiyev də əsl kəşfiyyatçı kimi hələ müharibə başlanmazdan əvvəl bu istiqamətdə öz üzərinə düşən fəaliyyəti uğurla yerinə yetirmiş, düşmən tərəfi barədə, onun hərbi resursları, döyüş qabiliyyəti, həssas elementləri və həmçinin həyata keçirmək istədikləri hərbi əməliyyatlara bağlı geniş məlumatlar toplaya bilmişdi...

Sentyabrın 27-si... Mənfur qonşularımız növbəti təxribata əl atırlar. Və artıq yetişir illərdir, xalqımızın, mərd oğulların həsrətlə gözlədiyi həmin məqam. İrəli əmri verilir. Müzəffər Ordumuz cəbhəboyu bir neçə istiqamətdən zəfər yürüşünə başlayır. Zəfər ordenli, qəhrəman şəhidimiz polkovnik Babək Samidli döyüşqabağı əsgərləri qarşısında deyir: “...Bir canımız var, Allah nə yazıbsa, o da olacaq. Şərəfli və doğru yolu seçin, yalnız 3 məqsədimiz olsun – ya qalib olaq, ya qazi olaq, ya da şəhid. Azərbaycan əsgərinin başqa seçimi ola bilməz”. Baş leytenant Şəhriyar Mehdiyev deyir ki, cəsur polkovnikin bu sözləri bölüyün əsgərlərinə əsl döyüş ruhu aşılayır. Beləliklə, Şəhriyarın rəhbərlik etdiyi bölük sentyabrın 27-də Milli Qəhrəman general Polad Həşimovun adını daşıyan postdan Talış və Suqovuşan kəndlərinin, strateji yüksəkliklərin azad edilməsi üçün hücum əməliyyatına başlayır. Saatlarla qızğın döyüşlər gedir. Mərmi yağışından göz açmaq mümkün deyil. Düşmənlə, təxminən, 30-40 metr məsafə var. Qarşı tərəfin atdığı qumbara Şəhriyarın durduğu mövqedən bir qədər aralıya düşərək parçalanır. Ətrafa səpələnən qəlpələrdən yayınmaq mümkünsüzdür. Şəhriyar ayağından yaralanır. Ancaq özünü qətiyyən itirmir. Öz yarasını sarıyıb yaralı halda əsgərləri ilə birgə irəli atılır. Komandirin bu qətiyyəti, dönməzliyi əsgərlərinə də təsirsiz ötüşmür. Talış, Suqovuşan yüksəkliklərinin azadlığı uğrunda 3-4 gün ard-arası kəsilmədən döyüşlər gedir. Şəhriyar Mehdiyev qolundan da qəlpə yarası alır. Ancaq heç bir vəchlə döyüşü dayandırmır. Bu müddətdə kəşfiyyat bölüyünün giziri Cəbrayıl Yavərli, əsgər Nicat Göyüşov, Elşən Dəmirli və digərləri də xəsarət alırlar. Ancaq bölükdən heç kim döyüş meydanını tərk etmir, sonacan vuruşurlar. Günlərlə davam edən atışmalar nəticəsində məğrur oğullarımızın şücaəti düşməni xeyli sayda itki verərək geri çəkilməyə məcbur edir. Və nəhayət, oktyabrın 3-də Suqovuşana əbədi qovuşuruq. Şəhriyar və bölüyü 44 günlük Vətən müharibəsində Kəlbəcərin bir sıra kəndlərində, Ağdərə və Füzulidə də uğurlu əməliyyatlar aparır, düşmənin çox sayda canlı qüvvəsini, texnikasını məhv edir, onlarla yaralımızın döyüş meydanından çıxarılmasına nail olurlar...

44 günlük zəfər yürüşümüzün, Böyük Qələbəmizin təntənəli marşı noyabrın 8-i Şuşada çalınsa da, Suqovuşanın azad olunması müharibənin taleyində xüsusi, həlledici rol oynadı. Qəhrəman eloğlumuz Şəhriyar Mehdiyev, onun bölüyü böyük şücaət və igidlik göstərərək xalqımızın qəlbində şərəf, ləyaqət, məğrurluq dastanı yazdılar:

*Atdı Suqovuşanın azadlığına*
*Şərəfli imzasın igid Şəhriyar.*
*Birləşdi Vətənim, daha bölünməz,*
*Çün onun qəhrəman oğulları var.*

**Nail ƏSGƏROV**

## Yeni nəşrlər

# Yallılarımız haqqında qiymətli mənbə

Yallı və halay rəqsləri Azərbaycanın, xüsusilə də Naxçıvan Muxtar Respublikasının milli-mədəni sərvətlərinin şah əsərləridir. Bu unikal rəqs janrları özündə təkcə Azərbaycanın deyil, eyni zamanda böyük Türk dünyasının etnik-mədəni sisteminin təzahürü olan prototürklərin milli dəyərlərini min illər ərzində qoruyub saxlamaqla ilk insan həyatının etik və estetik həyat tərzi haqqında informasiyanı müasir dövrümüzə qədər yaşadan sənət abidələridir. Yallı və halay rəqsləri həmrəylik simvolu kimi kütləvi olaraq xalqı bir araya gətirən milli varlıq təcəssümüdür. Bu rəqs janrları folklorumuzun bəzəyi olmaqla yanaşı, həm də onun təcəssümü olub türk xalqlarının mədəni birliyinin qaranti kimi xüsusi əhəmiyyətə malikdir.



Yallı və halaylar təkcə rəqs sənəti deyil. Onlar folklorumuzda həm musiqi, həm də şifahi xalq ədəbiyyatı örnəkləri olan bayatı, mahnı, şeir növlərinin qədim örnəklərinin bizə çatmasında önəmli rol oynamışdır. Onların instrumental, həm də vokal-instrumental formaları qədim ənənələrə söykənən milli nəğmələrin, musiqi, rəqs sənətlərinin yaşadılmasında və məişət mərasimlərinin bəzəyi kimi böyük əhəmiyyət kəsb etmişdir. Bu baxımdan yallıların toplanması, nota alınması, tədqiqi olduqca əhəmiyyətli və vacib məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan yallılarının böyük əhəmiyyətə malik olmasını öz çıxışlarında dəfələrlə qeyd etməsi, ona xüsusi diqqət ayırması tələb və tövsiyə etməsi Naxçıvan yallı və halaylarının araşdırılması məsələsinin aktuallığını bir daha ön plana çəkmişdir. Belə ki, Ali Məclis Sədri 2018-ci il 24 dekabr tarixdə Sərəncam imzalamışdır. Həmin sərəncamda Azərbaycan türklərinin qədim mədəniyyətinin bir hissəsi olan Şərur yallılarının xoreoqrafiya, instrumental və vokal musiqini özündə birləşdirən nadir yaradıcılıq nümunəsi, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahürü olması qeyd edilir. Əlavə olunur ki, Əshabi-Kəhf və Gəmiqaya kimi, Şərur yallıları da Naxçıvanın incisi, xalqımızın tarixi yaddaşının və milli dəyərlər sisteminin ayrılmaz tərkib hissəsidir. Bu amil əsas götürülərək Naxçıvanda yallı sənətinin inkişafı sahəsində kompleks tədbirlər görülüb, yallılar nota köçürülüb. Bu gün muxtar respublikada “Şərur” Xalq Yallı Ansamblı və rayon mədəniyyət şöbələrinin nəzdində yallı qrupları fəaliyyət göstərir. Bu sahədə görülən işlərin davamı olaraq 2018-ci ildə də yallı sənəti ilə bağlı tədqiqatlar aparılıb, bu nadir irsin YUNESKO səviyyəsində qorunması üçün “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar aidiyyəti üzrə təqdim olunub, “Yallı (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri” YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Sərəncama əsasən Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı” təsdiqlənib.

Qeyd edək ki, yallı və halayların toplanması, sistemləşdirilməsi, not yazılarının əldə edilməsi, yallıların dil, folklor və tarixi baxımından araşdırılması çox vacib məsələlərdəndir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Verilişləri Komitəsi, o cümlədən bir çox əlaqədar təşkilatlar bunu nəzərə alaraq yallıların milli-mənəvi dəyər daşıyıcısı kimi araşdırılmasında və təbliğində müxtəlif addımlarla yola çıxaraq, öz fəaliyyətlərinin əsas hissəsini bu istiqamətdə təşkil etmişlər.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə ərsəyə gəlmiş “Yallılar dünəndən bu günə” adlı nəfis tərtibatlı kitabı Azərbaycan mədəniyyəti, elmi üçün dəyərli töhfələrdəndir. Kitab Ali Məclis Sədrinin yallılarımız haqqında söylədiyi fikirlərlə başlayır: ***“Naxçıvanın üç incisi bizim üçün, xüsusilə əzizdir: Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları. Biz bu inciləri qoruyub saxlamalıyıq”.*** Bu dəyərli fikirlərdən sonra yuxarıda qeyd etdiyimiz sərəncam təqdim olunur. Növbəti səhifədə Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər planı öz əksini tapır.

Qeyd edək ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunan kitabın elmi redaktoru və ön sözün müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru, mədəniyyət naziri Natəvan Qədimovadır. Natəvan Qədimovanın qeyd etdiyi kimi, yeni nəşrdə Azərbaycan türklərinə məxsus 94 yallı haqqında sanballı məlumat öz əksini tapır. Bu məlumatlar təkcə yallıların forma və bədii xüsusiyyətləri, notları haqqında deyil, həm də tarixi baxımdan da dəyərli məsələləri əhatə edir. Kitabda yer alan yallıların notları Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Əkrəm Məmmədli, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev və Kənan Məmmədli tərəfindən tədqim edilmişdir. Kitabın rəyçisi Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovdur. Bu nadir xalq rəqslərimizi toplayıb əldə edənlər Leyla Əlimərdanova və İman Alırzayevdir. Yeni nəşrdə yallılar haqqında Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçiləri, “Şərur” Xalq Yallı Ansamblının direktoru Kimya Babayeva və Səttar Əhmədov, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi İsa Əliyev, Əli İsmayılov, Aydın Cabbarov, Tarverdi Hüseynov tərəfindən toplanılan məlumatlar üç dildə – Azərbaycan, ingilis və rus dillərində təqdim olunur.

*“Yallılar dünəndən bu günə” kitabı Azərbaycan mədəniyyəti, elmi, ictimaiyyəti üçün böyük töhfədir. Eyni zamanda bu kitabın ərsəyə gəlməsi milli incilərimiz olan yallılarımızın qorunması, gələcəyə ötürülməsi sahəsində görülən ən uğurlu işlərdən biri kimi qiymətli mənbədir.*

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq noyabrın 11-dən tam orta məktəblərin şagirdləri payız mövsümünün tibbi müayinələrinə cəlb olunub.*

# Məktəblilərin dərin tibbi müayinələri başa çatıb

Müayinələr müxtəlifixtisaslı həkimlərdən ibarət briqada tərəfindən aparılır. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası 17 nömrəli tam orta məktəbdə apardığı tibbi müayinələrlə Naxçıvan şəhəri üzrə bu tədbiri başa çatdırıb. Müayinələrə məktəbin həkim və tibb işçiləri də cəlb olunub. 658 şagird arasında digər xəstəliklərlə yanaşı, həm də endemik zobun rast gəlinmə tezliyi müəyyən edilərək ixtisas həkimlərinə yönləndirilib.



Bütövlükdə, Naxçıvan şəhərinin 20 tam orta məktəbində keçirilən bu tədbir həm də uşaq əhalisinin tibbi dispanserizasiyasına xidmət edib.

Hazırda tibbi müayinələr vasitəsilə uşaqlarda xəstəliklərin və onların risk amillərinin erkən mərhələdə aşkar edilməsi rayonlarda təmin olunur və sağlamlaşdırıcı tədbirlər aparılır, profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərin elektron qeydiyyat sistemi təkmilləşdirilir, uşaqlar və valideynlər arasında xəstəliklərin profilaktikası məqsədilə maarifləndirmə işi gücləndirilir.

# Peyvəndin vurulması davam etdirilir

Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçiləri həm obliqat, həm də risk qrupuna (xüsusilə ginekologiya, stomatologiya, cərrahiyyə, hemodializ, laboratoriya şöbələrinin işçiləri) daxil olduqları üçün onların hepatit B virusuna yoluxma ehtimalı daha çoxdur. Odur ki, bu təhlükəli virus infeksiyası ilə qarşılaşmamaq üçün tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılması profilaktik tədbirlər sırasında xüsusu yer alır. Vaksinasiyanın növbəti turu üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində komissiya yaradılıb.

Tibb müəssisələrinin baş həkimləri, dializ şöbəsi və ya bölmələrinin müdirləri də komissiyada təmsil olunublar. Dörd orta tibb işçisindən (vaksinator daxil olmaqla) ibarət briqadalar noyabr ayından tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılmasını davam etdirirlər.

Ötən müddətdə Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Doğum Mərkəzində, Stomatoloji Mərkəzdə 72, rayon mərkəzi xəstəxanalarında isə 149 nəfər hepatit B vaksini ilə immunlaşdırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

**Bildiriş**

“Aras Karqo” MMC-nin adı dəyişdirilərək “Sultan Karqo” MMC-yə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 926